# Azərbaycan Respublikasında Korrupsiyaya qarşı mübarizə sahəsində qabaqlayıcı tədbirlərin əhəmiyyəti

***Mütəşəkkil cinayətkarlığın təhlükəli təzahürlərindən olan korrupsiya ən qədim vaxtlardan mövcud olmaqla bütün cəmiyyətlərə xas olan ən mürəkkəb sosial problemlərdən biridir. Azərbaycan Respublikasında korrupsiya cinayətlərinə qarşı barışmaz və prinsipial mübarizə məhz ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında başlamış, bu istiqamətdə qətiyyətli tədbirlər həyata keçirilmişdir. Ulu öndərin rəhbərliyi altında Azərbaycan Respublikasında mütəşəkkil cinayətkarlığa və onun təhlükəli təzahürü kimi korrupsiyaya qarşı mübarizə yeni müstəviyə qaldırılaraq, qabaqlayıcı tədbirlər önə çəkilmişdir.***

Hüquqa və sosial ədalətə söykənən sivil vətəndaş cəmiyyəti və demokratik dövlət quruculuğu xəttini son illərdə tamamilə yeni müstəvidə uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə korrupsiyaya qarşı mübarizə tədbirlərinin miqyası daha da genişləndirilib. Prezident İlham Əliyevin rəhbərliyi ilə bir çox fərqli sahələri sistemli şəkildə əlaqələndirən islahatların müsbət nəticələri vətəndaş-məmur təmasında şəffaflıq, hesabatlılıq və rəqəmsallaşdırmanın genişlənməsi kimi korrupsiya riskini minimuma endirən indikatorlara öz töhfəsini vermiş, bununla da hüquqi şəxslərin dövlət qeydiyyatı, tikinti, əmlakın qeydiyyatı, vergi, gömrük, xarici ticarət və dövlət satınalmaları kimi ayrı-ayrı sektorların yeni inkişaf müstəvisinə keçidi stimullaşdırılmışdır.

Belə bir yanaşma vardır: “qarşısını almaq müalicə etməkdən daha yaxşıdır”. İctimai etimad, dövlət institutlarının effektivliyi, iqtisadi inkişaf və dövlət təhlükəsizliyi prioritet olduğu halda bu yanaşma xüsusilə korrupsiyanın qarşısının alınması sahəsində də özünü doğruldur.

Dövlətlər korrupsiyanın qarşısını almaq üçün müxtəlif vasitələrdən istifadə edir. İctimai maarifləndirmə, korrupsiyaya qarşı ictimai dözümsüzlüyün və bu sahədə dövlət tənzimlənməsinin gücləndirilməsi əsas alətlərdir; korrupsiya risklərinin müəyyən edilməsi və qiymətləndirilməsi yolu ilə qabaqlayıcı tədbirlərin görülməsi hazırda gündəmdə olan ən aktual üsullardan biridir.

Korrupsiyanın qarşısının alınması Birləşmiş Millətlər Təşkilatının “Korrupsiya əleyhinə Konvensiyası”nın ikinci bölməsində tanınmışdır. Konvensiyada korrupsiyanın qarşısının alınması və ona qarşı əks təsir vasitələri kimi hüquq sisteminin əsas prinsiplərinə uyğun olaraq, cəmiyyətin korrupsiya ilə mübarizədə iştirakını təşviq edən, qanunun aliliyi, dövlət işlərinin və dövlət əmlakının düzgün idarə olunması, vicdanlılıq, şəffaflıq və məsuliyyətlilik prinsiplərini özündə əks etdirən korrupsiyaya qarşı səmərəli və uzlaşdırılmış siyasətin hazırlanması və tətbiq edilməsi; korrupsiya ilə mübarizə praktikasının səmərəli növlərini müəyyən etməyə və təşviq etməyə səy göstərilməsi; müvafiq hüquqi sənədlərin və inzibati tədbirlərin korrupsiyanın qarşısının alınması və onunla mübarizə baxımından uyğunluğunu müəyyən etmək üçün onların dövri dəyərləndirilməsinə səy göstərilməsi; öz hüquq sistemlərinin əsas prinsiplərinə uyğun olaraq, müvafiq tədbirlərin hazırlanması və inkişaf etdirilməsində müvafiq beynəlxalq və regional təşkilatlarla qarşılıqlı fəaliyyət göstərilməsi xüsusi vurğulanmışdır. Belə qarşılıqlı fəaliyyət korrupsiya ilə mübarizəyə yönəlmiş beynəlxalq proqram və layihələrdə iştirak formasında da ola bilər.

Qeyd edildiyi kimi, korrupsiyaya qarşı mübarizə sahəsində inzibati və cinayət məsuliyyəti tədbirləri ilə yanaşı, preventiv tədbirlərin də çox mühüm amil olması və uğurlu nəticələrə onların vəhdəti olduqda nail olunması xüsusilə vurğulanmalıdır. Bu sahədə respublikamızda görülən işlərdə və əldə edilən göstəricilərdə milli prokurorluq orqanlarının, o cümlədən, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rolu, üzərinə qoyulmuş vəzifələrin uğurla və səmərəli icra edilməsi xüsusi qeyd olunmalıdır.

Belə ki, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi fəaliyyətində korrupsiya ilə bağlı cinayətlər üzrə həyata keçirilən ibtidai istintaq və əməliyyat-axtarış fəaliyyəti ilə yanaşı, qabaqlayıcı, önləyici, korrupsiya üçün şərait yaradan halların aradan qaldırılmasına yönəlmiş tədbirlərin yerinə yetirilməsinə də böyük önəm verir. Korrupsiyaya qarşı mübarizədə qabaqlayıcı tədbirlərin mühüm əhəmiyyəti nəzərə alınaraq, korrupsiya cinayətləri və hüquqpozmalarının yayıldığı sahələrin müəyyənləşdirilməsinə diqqət artırılmaqla preventiv tədbirlərin təsir gücünün məhz bu istiqamətlərə yönəldilməsi son illərin təcrübəsi ilə bir daha öz təsdiqini tapmaqdadır.

Baş İdarə kifayət qədər analitik imkanlara malik olaraq, korrupsiyaya daha çox uğramış sahələrin müəyyən edilməsi üçün müxtəlif istiqamətlərdə təhlillərin aparılması, korrupsiya risklərinin müəyyən olunması və riskli sahələrin identifikasiyası, korrupsiyanı doğuran səbəblərin müəyyən edilməsi üçün tədqiqatların aparılması, korrupsiyaya qarşı mübarizənin səmərəliliyinin artırılması məqsədilə korrupsiyanı doğuran səbəb və şəraitin, həmçinin korrupsiyaya qarşı mübarizə sahəsində müəyyən edilmiş nöqsanların aradan qaldırılması üçün təklif və tövsiyələrin hazırlanması, dövlət və özəl sektorda korrupsiyaya uğrama meyarlarının hazırlanması və həmin meyarlar əsasında dəyərləndirmələrin aparılması, süründürməçiliyə və korrupsiyaya yol açan halların müəyyən edilməsi, ümumiləşdirmələr nəticəsində korrupsiyaya cəlb olunma tendensiyalarının müəyyən edilməsini həyata keçirir.



Korrupsiya risklərinin müəyyən edilməsinə korrupsiya hüquqpozmaları barədə müraciətlərin fasiləsiz rejimdə qəbulu məqsədi ilə yaradılmaqla Baş İdarə ilə vətəndaşlar arasında mühüm əhəmiyyətli dialoq vasitəsi rolunu oynayan “161-Qaynar xətt” əlaqə mərkəzinə daxil olan yerli icra hakimiyyətləri, səhiyyə, sosial müdafiə, təhsil, bələdiyyə və digər sahələri əhatə edən müraciətlərin öyrənilərək təhlil edilməsi, qiymətləndirilməsi və ümumiləşdirilməsi də səmərəli təsirini göstərmişdir.

Korrupsiyanın qarşısının alınması sahəsində aparılan ardıcıl tədbirlər çərçivəsində prokuror təsir tədbirləri aktlarından geniş istifadə olunur.

Belə ki, Baş İdarəyə daxil olan korrupsiya hüquqpozmaları barədə məlumatlar əsasında aparılan araşdırmalar zamanı dövlət və özəl sektorda çalışan ayrı-ayrı vəzifəli şəxslər tərəfindən yol verilmiş pozuntuların, onları doğuran səbəb və şəraitin aradan qaldırılması və bir daha təkrar olunmaması üçün tədbirlər görülməklə, vəzifəli şəxsin tutduğu vəzifəyə uyğunluğu yoxlanılmaqla intizam məsuliyyətinə cəlb olunması məsələsinin nəzərdən keçirilməsinə zərurət yarandığından, müvafiq təqdimatlar göndərilmiş, müxtəlif qurumlara göndərilmiş təqdimatlara baxılmasının nəticəsi olaraq, həmin qurumlar tərəfindən nöqsan və pozuntulara yol vermiş şəxslərin barəsində rəsmi xəbərdarlıq, töhmət, şiddətli töhmət, vəzifədən azad etmə və digər intizam xarakterli tədbirlərin görülməsi təmin edilmişdir.

Eyni zamanda, korrupsiyaya qarşı qabaqlayıcı tədbir kimi, “Prokurorluq haqqında” Azərbaycan Respublikası Qanununun 22-ci maddəsinə müvafiq olaraq, qanun pozuntularından çəkindirmək məqsədilə vəzifəli şəxslərə rəsmi xəbərdarlıqlar edilmişdir.

Bununla yanaşı, Baş İdarəyə daxil olan müraciətlər üzrə aparılan araşdırmalar zamanı inzibati pozuntu aşkar edildiyi hallarda Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələri ilə inzibati xəta haqqında iş üzrə icraatların başlanması haqqında qərarlar qəbul edilərək, toplanmış materiallar aidiyyəti üzrə müvafiq icra orqanlarına və məhkəmələrə göndərilir. Nəticədə korrupsiyaya şərait yarada biləcək pozuntulara yol vermiş fiziki və hüquqi şəxslərə qarşı müxtəlif məbləğlərdə cərimə növündə inzibati cəza tədbirləri tətbiq edilir ki, bu da korrupsiya cinayətlərinin qarşısının alınması sahəsində mühüm vasitələrdən biri kimi çıxış edir.

Korrupsiyaya qarşı mübarizə sahəsində qeyd olunan fəaliyyət çərçivəsində Baş İdarəyə daxil olan sosial müdafiə, təhsil, səhiyyə, bank, özəl sektor və bir çox digər zəruri sahələr üzrə korrupsiya ilə əlaqədar məlumatlar, vətəndaşların yazılı müraciətləri, habelə nazirliklər və dövlət qurumlarından daxil olan materiallar öyrənilib məzmunu təhlil edilir, ümumiləşdirilir, nəticəsindən asılı olaraq korrupsiyaya qarşı mübarizənin səmərəliliyinin artırılması üçün təklif və tövsiyələr hazırlanır, həmin fəaliyyət həyata keçirilərkən normativ hüquqi aktlarda və onların layihələrində korrupsiya hüquqpozmalarına şərait yaradan hallar müəyyən edildikdə, onların aradan qaldırılması üçün zəruri tədbirlər görülür.

Baş İdarə tərəfindən aparılan təhlillər nəticəsində korrupsiya daha çox məruz qalan sahələr müəyyən edilməklə, həmin sahələrdə korrupsiyanı doğuran səbəb və şərait, onların aradan qaldırılmasına dair təkliflər hazırlanaraq mütəmadi olaraq aidiyyəti dövlət qurumlarına göndərilir.

Belə ki, Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən sosial müdafiə, təhsil, bank, qida təhlükəsizliyi və digər sahələrdə daha çox rast gəlinən korrupsiya və korrupsiyaya şərait yaradan hüquqpozmaların aradan qaldırılması fəaliyyətinin daha da təkmilləşdirilməsi, bu sahədə qanun pozuntularının qarşısının alınması məqsədi ilə zəruri tədbirlərin həyata keçirilməsi üçün müxtəlif vaxtlarda müvafiq nazirliklərə və dövlət qurumlarına təkliflərin göndərilməsi təmin edilmişdir.

Həmin nazirliklər və dövlət qurumlarında təkliflər müzakirə olunaraq, əksəriyyətinin həqiqətən də korrupsiyaya qarşı mübarizə sahəsində müsbət və effektiv təsir göstərəcəyi vurğulanaraq, bununla bağlı mövcud qanunvericiliyə müvafiq dəyişikliklər edilməsinin zəruriliyi bildirilmişdir.

Son zamanlar əhalinin həssas təbəqəsini əhatə edən əmək və əhalinin sosial müdafiəsi sahəsində mümkün korrupsiya hallarına qarşı qabaqlayıcı tədbirlərin ardıcıl, geniş şəkildə görülməsi üçün analitik təhlillər aparılmaqla, korrupsiya risklərinin müəyyən edilərək qiymətləndirilməsi həyata keçirilir və bu sahədə də müvafiq icra hakimiyyəti orqanları ilə qarşılıqlı işlər görülür.

Eyni zamanda, korrupsiyaya qarşı preventiv (qabaqlayıcı) tədbirlər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birgə Baş İdarə tərəfindən görülmüş qabaqlayıcı və maarifləndirmə tədbirlərinin əhəmiyyəti də vurğulanmalıdır.

Korrupsiya hüquqpozmaları və ona şərait yaradan hallara qarşı qabaqlayıcı tədbirlərin dövlət siyasəti olaraq həyata keçirilməsi çərçivəsində Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2020-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş “Açıq hökumətin təşviqinə dair 2020–2022-ci illər üçün Milli Fəaliyyət Planı” xüsusi qeyd olunmalıdır.

Fəaliyyət Planına uyğun olaraq, Baş İdarə qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla korrupsiya risklərinin müəyyən edilməsinə, təhlilinə və qarşısının alınmasına dair metodologiyanın hazırlanması, açıq hökumət və korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşan beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişaf etdirilməsi, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına şərait yaradan cinayətlər üzrə illik risk qiymətləndirilməsi aparılması və nəticələri barədə maliyyə monitorinqi orqanının məlumatlandırılması, kölgə iqtisadiyyatının aradan qaldırılması, sahibkarlıq subyektlərinin fəaliyyətində şəffaflıq, korrupsiyaya qarşı mübarizə və hesabatlılıq tələblərinin gücləndirilməsi ilə bağlı təkliflərin hazırlanması kimi korrupsiyanın qarşısının alınması və dövlət orqanlarının fəaliyyətində şəffaflığın gücləndirilməsi sahəsində vəzifələrini uğurla icra edir.

Son olaraq qeyd edilməlidir ki, ölkəmizdə həyata keçirilən quruculuq işlərinə, iqtisadi, sosial və siyasi sahədə aparılan islahatlara kölgə salan, habelə əhalinin haqlı narazılığına səbəb olan rüşvətxorluq və korrupsiya kimi neqativ təzahürlərə qarşı daha ciddi mübarizə aparılması sahəsində qarşıya qoyulmuş vəzifələrə uyğun olaraq Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən bundan sonra da korrupsiya hüquqpozmalarını doğuran səbəb və şəraitin müəyyən edilməsi və cinayətlərin qarşısının alınması istiqamətində sistemli, ardıcıl və qətiyyətli mübarizə tədbirlərinin davam etdirilməsi təmin ediləcəkdir.

Heç şübhəsiz ki, davamlı şəkildə həyata keçirilən analitik fəaliyyət, qabaqlayıcı tədbirlər və nəticədə irəli sürülən təkliflər bütün sahələr üzrə korrupsiya hüquqpozmalarına qarşı daha çevik mexanizmin yaradılmasında mühüm stimul rolunu oynayacaq.

***Orxan QAZİZADƏ,***
***Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşı, kiçik ədliyyə müşaviri, “Yüksəliş” müsabiqəsinin qalibi***